# Təbrizin ürəkləri yandıran zəngin folklor nümunələri...

**Cənubi Azərbaycan ərazisi qədim türklərin ana vətənlərindən biridir. Bu coğrafiya xalqımızın çox əski zamanlardan formalaşdığı, ayaqlandığı, öz mədəniyyətini, bənzərsiz söz incilərini yaratdığı bir məkandır. Əlbəttə, tarixin ayrı-ayrı dövrlərində aparılan arxeoloji qazıntılar zamanı əcdadlarımızın izləri, yaratdıqları xəzinələr, sənət inciləri üzə çıxarılıb.**



Urmiya gölünün sahillərində aparılan arxeoloji qazıntılar zamanı türk mədəniyyətinin saysız inciləri aşkarlanıb. Bu gün molla rejimi Urmiya gölünü qurutmaqla tarixi mədəniyyətimizin izini itirməyə çalışır. Bir məqamı da qeyd edək ki, Güney Azərbaycan aşıq sənətinin ilkin ocaqlarından biri kimi bilinməkdədir. Sazlı-sözlü güneyin saz sənətindən, adı bəlli aşıqlarından bu dəfə söhbət açmayacağıq, indi xalq yaradıcılığından, ağız ədəbiyyatından, kədər-qəm butalı bayatılardan danışacağıq. Azərbaycan folklor mədəniyyətinin zəngin yartırımlarından biri məhz Güney Azərbaycandadır. Güney Azərbaycan Folkloru VII cildliyi də nəşr eidlib. Nəşr AMEA-nın Folklor İnstitutunun Güney Azərbaycan Folkloru şöbəsi tərəfindən həyata keçirilib. Azərbaycan folklorunun ən qədim janrlarından biri məhz bayatılardır. Bu bayatıların ən incə, ən zərif örnəklərini güneyli dədələrmiz, nənələrimiz yaradıb. Fars-molla rejimi tərəfindən dilimiz qadağan edilsə də, mədəniyyətimiz basqılara məruz qoyulsa da, sazımız 40 il sandıqda saxlanılsa da, dilimizdə təhsil almaq mümkünsüz olsa da, ana dilimizi folklorumuz, nənələrimizin, dədələrimizin bayatıları, nağılları, rəvayətləri yaşadıb. Folklor dilimizin bir nömrəli yaşayıdıcısı kimi özünü təsdiqləyib. Xalqın dili qadağan ediləndə folklora üz tutub, özünü onunla saxlayıb, dilimizi o cür qoruyub. Qoca Təbriz, uca Təbriz, ana Təbriz, gözümüzün nuru Təbriz, qəhrəmanlar diyarı, igidlər məsgəni Təbriz, sənin incə bayatıların, bizi həyata bağlayan sözün-söhbətin düşmənə bir ayrı cür dərd verir. Dərdin dağlara daşlara, düşmən başına ağsaçlı ana Təbriz!

Bu gün molla rejimi tərəfindən qan gölünə çevirilən Güneyimizin söz sənətini, folklorunu, bayatılarını, tarixini təbliğ etmək, onu yeni nəslə çatdırmaq borcumuzdur.

Tədqiqatçı Almaz Həsənqızı "Folklorşünaslıqğa giriş" kitabında qeyd edir: "...İran adlanan ərazidə otuz beş milyona qədər Azərbaycan türkü yaşayırsa, bu da oradakı folklor mətnlərinin nə qədər zəngin və sayının həddsiz dərəcədə çox olduğunu göstərməyə kifayətdir. Təəssüf ki, hələ də bu zəngin irsin toplanması, nəşri, məlum sə- bəblərə görə, böyük çətinliklərlə başa gəlir. Təbii ki, Azərbaycanın Güneyində folklor materiallarının toplanması işinə nə qədər manelər törədilsə də, bu istiqamətdə müəyyən qədər işlər görülmüşdür. Belə ki, AMEA Folklor İnstitutu "Güney Azərbaycan folkloru" silsiləsindən beş kitabı nəşr etdimişdir. Lakin bir fakta nəzər salmaqla bu sahədəki vəziyyəti aydın təsəvvür etmək mümkündür...Bununla belə, Güneydə folklorla bağlı az da olsa, tədqiqatlar aparılmışdır. Azərbaycan folklorşünaslığına həsr edilən kitablarda bu araşdırmaların nəzərə alınması, təhlilə cəlb edilməsi də folklorşünalarımız qarşısında duran vacib məsələlərdir".

Qeyd ediliyi kimi, Güney Azərbaycanda folklor örnəklərinin toplanılması işinə ciddi maneçilik törədilir. Əlbəttə, mollakratiya rejiminin əsas məqsədi dilimizi, mədəniyyətimizi silməkdir. Amma bunu bacara bilməyəcək...

Bu gün Güney Azərbaycan özünün çox həssas bir məqamını yaşayır. Biz də soydaşlarımızla, qandaşlarımızla həmrəyik, həmfikirik, onlara ciddi dəstək dururuq. Zaman olub ki, Güneyli Quzeyli Azərbaycan bir olub və onda Arazı azarlayan, həsrət çayına çevirən bayatılar bəlkə də olmayıb. O taybu tay həsrətilə yaranan bayatılar yəqin ki, son 200 ildə yaranıb. Gülüstan, Türkmənçay müqaviləsindən sonra böyük Azərbaycan cənublu şimallı Azərbaycana çevirilləndən sonra yaranıb bu bayatılar. Ayrılıqların, həsrətin, acıların səsinə çevirilib bu bayatılar. Bəlkə də əvvəllər Arazın suyu belə acı deyildi, çünki anaların göz yaşları ona qarışmamışdı, belə ahlı-naləli deyildi, anaların ahı tökülməmişdi ona. Təbriz Bakı yollarına göz dikən analar, nənələr hansı bayatıları dərdlərinə dərman bilməmişdilər.

*Araz, Araz Xan Araz!*
*Sultan Araz, xan Araz!*
*Çayın, çeşmən qurusun,*
*Mənim təki yanƏ, Araz!*

*Araz gəlir daşınnan,*
*Suyu qalxır başınnan.*
*Əzəli dumduruydu,*
*Bulandı göz yaşınnan.*

Niyə də göz yaşından bulanmasın ki. Səməd Behrənginin, daha neçə-neçə Azərbaycan aydınının qətlinə fərman verilib Arazda.

*Araz gəldi, yan axdı,*
*Dibindən min can axdı.*
*Vətən sarı baxanda,*
*Ürəyimdən qan axdı.*

Ürəyindən qan axan da Araz oldu həmişə. Araz, xan Araz, bizi ikiyə bölən Araz hamıdan çox dərd çəkib. Dərdinə dərman kim olub ki? İrtica rejiminin basqıarı altında folklorumuzu yaşadan güneylilər dilimizə, mədəniyyətimizə sahib çıxıblar.

*Arazdan keçən də var,*
*Suyundan içən də var,*
*Qardaş adı çəkəndə,*
*Ürəyi keçən də var.*

Bu bayatını da özü o tayda qardaş-bacıları bu tayda həsrətlə alışıb yananlar yazıb. Ürəyinə daş bağlaya bilməyib gecə-gündüz Araz boyu qaçıb sulara yalvaran bacılar oxuyub bu bayatını. Oxuyub ki, bəlkə yellər naləsini qardaşına yetirə.

Gözü bir cüt çeşmə olanlar, ayrılıq dəmini hiss edib qəlbindən oxlananlar Araz boyu oxudular.

*Araza gəmi gəldi,*
*Mən dedim hami gəldi*
*Sən ağla, ay gözlərim*
*Ayrılıq dəmi gəldi.*

*Arazda axar qaldı,*
*Tərlan uçdu, sar qaldı.*
*Elimdən ayrı düşdüm,*
*Gözlərim baxar qaldı.*

Bu gün də Təbrizin dərdinə dərman olmaq əlimizdən gələni etməyə hazırıq. Təbii, Təbriz də bizim elimizdir, özü də ən böyük, ən qədim elimiz...

*Keçmə, Araz dərindir,*
*İçmə, suyu sərindir.*
*Həsrət baxan bu ellər,*
*Sənin də ellərindir.*

Heç yadımızdan çıxmaz, keçən əsrin 90-cı illərinin əvvəllərində Şəhriyarın şeirlərini və Təbriz bayatıları yazılan vərəqləri tutiyə kimi gözlərimizə tuturduq. Məhəmmədhüseyn Şəhriyarın şeirilərini, xüsusən də "Heydər babaya salam" poemasını əzbərləyirdik, o bizə güneyimizdən gələn töhfə idi. Hələ Təbriz ruhlu, Təbriz bayatıların içimizə saldığı odu demirik.

*Ağ dəvə düzdə qaldı,*
*Yükü Təbrizdə qaldı.*
*Oğlanı dərd apardı*
*Dərmanı qızda qaldı.*

*Təbriz üstə Marağa,*
*Zülfün gəlməz darağa*
*Sən mənimsən mən sənin*
*Düşmə özgə marağa.*

Bu bayatının yükü nə boyda idi Tanrı, bir Təbriz boyda idi, əziz idi, gözəl idi...

Bu gün Cənubi Azərbaycandakı soydaşlarımız öz milli hökumətlərini yenidən qurmaq üçün mücadilə verirlər, iki aydan yuxarıdır ki, soydaşlarımıza divan tutulur, amma onlar geri çəkilmirlər. Meydanlarda neçə-neçə təzə və köhnə yaralar qan verir, biz də sözümüzlə, təsəllimizlə o yaraları bərk bağlamlıyıq ki, qan dayansın.

*Araz axar yan verər,*
*Səsi mənə can verər.*
*Yaramı yaxşı bağla,*
*Pis bağlasan qan verər.*

Güney Azərbaycandakı soydaşlarımız bu gün ayaqdadır və Tanrının köməkliyi ilə ədalət zəfər çalacaq və biz onda həsrət dolu bayatılar yox, sevgi, sevinc cilalı bayatılar, türkülər oxuyacağıq. Sözün tükənməsin Təbriz, Miyanə, Zəncan, Ərdəbil, Salmas, Marağa, Xoy, daha neçə-neçə adı bəlli, tarixi, sahibi bəlli qayım-qədim ellərimiz.

*Arazın başı mənəm,*
*Dibinin daşı mənəm.*
*Hər yanda qərib olsa,*
*Onun yoldaşı mənəm.*

Bütöv Azərbaycanın qan damarı Araz, sən bu dəfə əbədi olaraq xalqımızı, torpağımızı birləşdirəcəksən, adın daha ayrılıq çayı olmayacaq. Az qalıb. Çox az qalıb...

*Arazı ayırdılar,*
*Qum ilə doyurdular.*
*Mən səndən ayrılmazdım*
*Zor ilə ayırdılar-*

Bayatısı güneyli qüzeyli Azərbaycanın, dünya azərbaycanlıların dilinin əzbərinə çevirilib, molla rejimini də məhvərindən silkələyib. Yeri gəlmişkən, bir sıra mənbələrdə yazılır ki, bu bayatının müəllifi xalq şairi Bəxtiyar Vahabzadədir. Olsun. Bəxtiyar Vahabzadə də bütün həyatı boyu Azərbaycanın birləşməsi uğurunda mücadilə verib, ölməz "Gülüstan" poemasını yazıb...

*Araz axar lil ilə*
*Dəstə-dəstə gül ilə*
*Mən yarımı sevirəm*
*Şirin-şirin dil ilə.*

Bu da Araz bayatısıdır, sevgi cilalı, sevgi butalı bayatı.

Əziz oxucular, biz bundan sonra hər gün Güney Azərbaycan tarixi, mədniyyəti, coğrafiyası, yaşamı, folkoru, aşıq sənəti, ədəbiyyatı barədə silsilə yazılar təqdim edəcəyik. Bizi izləyin.

***İradə SARIYEVA***